# Neftayırma sənayesinin yeni mərhələsi

## *Bu mərhələnin bünövrəsi ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulub*



**Dünyada neft ölkəsi kimi tanınan Azərbaycan iqtisadi inkişaf yolunda inamla irəliləyir. 1994-cü il sentyabrın 20-də əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan yeni neft strategiyasının uğurla həyata keçirilməsi ölkəmizin beynəlxalq aləmdə nüfuzunu daha da artırır. Artıq 21 ildir ki, müstəqil Azərbaycan özünün *neft strategiyasını uğurla həyata keçirir. Tarixə "Əsrin müqaviləsi"* kimi düşən bu müqavilə Azərbaycanın dövlət müstəqilliyinin ən etibarlı qarantı, ölkə iqtisadiyyatının inkişafının və dirçəlişinin ən böyük amilidir və bu, neçə illərdir ki, açıq-aydın görünməkdədir.**

**Məhz bu müqavilədən sonra dünya dövlətlərinin Azərbaycana marağı artdı, ölkəmizin beynəlxalq əlaqələrinin genişlənməsinə güclü təkan verildi. Müqavilənin imzalanması ilə xalqımızın öz sərvətləri üzərində sahiblik hüququ bir daha təsdiqləndi, eyni zamanda Azərbaycan iqtisadiyyatının dünyaya açıq olması nümayiş etdirildi. "Əsrin müqaviləsi" Azərbaycanın bir dövlət kimi tanınmasına, dünya iqtisadi sisteminə qoşulmasına və beynəlxalq aləmdə mövqeyinin möhkəmləndirilməsinə şərait yaratdı. Beynəlxalq neft sazişlərinin imzalanması ilə bu sazişlərdə iştirak edən dövlətlərlə səmərəli və qarşılıqlı faydalı əməkdaşlığın inkişafı üçün əsaslı təməl quruldu, ölkəmizin geosiyasi mövqeyinin daha da möhkəmlənməsi, dünya iqtisadiyyatına inteqrasiya prosesinin sürətlənməsi üçün şərait yarandı.**

Bir qədər yaxın keçmişə qayıdaraq, xüsusilə qeyd etmək lazımdır ki, 1969-1982-ci illərdə respublikamıza rəhbərlik edən ulu öndər Heydər Əliyev bu müddət ərzində Azərbaycanda iqtisadiyyatın bütün sahələrinin böyük sıçrayışlı inkişafına nail olub. Heydər Əliyevin şəxsi təşəbbüsü, prinsipiallığı və ciddi səyləri nəticəsində Azərbaycanda çoxlu sayda zavod, fabrik və istehsal obyektləri işə salınıb. Neft sənayesinin ölkə iqtisadiyyatındakı rolunu uzaqgörənliklə nəzərə alan Heydər Əliyev ötən əsrin 70-ci illərində bu sahənin dinamik inkişafına nail olub, neft-kimya sənayesinin tamamilə modernləşdirilməsini təmin edib. Həmin dövr neft sənayesinin inkişafında yeni mərhələ başlanıb. Heydər Əliyevin gərgin əməyi sayəsində neft sənayesinin bərpası və dinamik inkişafını təmin edən mütərəqqi texnologiyalar və texnoloji proseslər istehsalatlara tətbiq olunub. Ulu öndərin müəllifliyi ilə tərtib olunan "Azərbaycanda neftayırma sənayesinin yenidən qurulması" planı əsasında neftayırma müəssisələrinin yenidən qurulması, iri istehsalat sahələrinin yaradılması prosesi sürətlə başa çatdırılıb.

Onu da qeyd etmək lazımdır ki, keçmiş SSRİ zamanı respublikamıza rəhbərlik etmiş Heydər Əliyevin məqsədyönlü, səmərəli fəaliyyəti nəticəsində, sözün əsl mənasında, iqtisadiyyatda, onun əsasını təşkil edən neft və neftayırma sənayesində dirçəliş baş vermişdir.

Ümummilli lider daim Azərbaycanın neft sənayesinə, xüsusilə onun bayraqdarı olan Yeni Bakı Neftayırma Zavoduna (indiki Heydər Əliyev adına Neft Emalı Zavodu) xüsusi diqqət və qayğı ilə yanaşıb, həmişə onun inkişafı üçün münbit şərait yaradıb. Məhz 70-ci illərdən başlayaraq həmin zavodda yeni qurğuların tikilməsi, müasir texnologiyaların tətbiq olunması ümummilli liderin gərgin səyləri sayəsində olub. O dövr dünyada ən qabaqcıl texnologiya sayılan ED-AV-6 kimi nəhəng neftayırma kompleksinin inşa olunması ideyasını Heydər Əliyev uzaqgörənliklə irəli sürüb, onun tikintisinə və istismara buraxılmasına nail olub.

1980-ci ildə yüksək oktanlı benzin istehsal edən katalitik riforminq qurğusunun inşa olunub istismara verilməsi də Heydər Əliyevin xidmətlərindəndir. O vaxtlar SSRİ hökuməti bu qurğunu Rusiyanın bölgələrinin birində inşa etməyi planlaşdırmışdı. Lakin böyük rəhbərin işə qarışması, prinsipiallığı, uzaqgörənliyi və böyük nüfuzu sayəsində SSRİ neft emalı sənayesi tarixində ilk katalitik riforminq qurğusu bizim zavodda müvəffəqiyyətlə istismara verildi. Həmçinin, ötən əsrin 70-80-ci illərində yenidənqurma və modernləşdirmə ilə bağlı işlərin başa çatdırılması nəticəsində müəssisədə iqtisadi göstəricilər xeyli



yaxşılaşdı. Nəhəng koks istehsalı, katalitik krekinq komplekslərinin tikintisi bilavasitə ulu öndərin adı ilə bağlıdır.

20 dəfədən çox zavod kollektivinin fəxri qonağı olan Heydər Əliyev daim bu qurğuların fəaliyyəti ilə maraqlanıb, özünün dəyərli məsləhət və tövsiyələrini verib. Kollektiv üzvləri bu gün də zavodun yenidən qurulmasının banisi Heydər Əliyevlə görüşlərini yaxşı xatırlayırlar. Zavodun kollektivi həmişə unudulmaz rəhbərin xüsusi diqqət və qayğısını hiss edib. Məhz ölkəmiz müstəqillik əldə etdikdən sonra – 1994-cü ildə Azərbaycan Prezidenti kimi Heydər Əliyevin sənaye müəssisələri arasında ilk dəfə olaraq bizim zavoda gəlməsi qeyd etdiklərimizə bariz nümunədir. Ən vacib məqamlardan biri isə ulu öndərin məhz "Əsrin müqaviləsi"nin imzalanmasından 3 gün əvvəl neft sənayesi müəssisələri arasında zavodumuza gəlməsidir. Hətta uzaq Klivlenddə müalicə olunarkən ümummilli lider zavodun istismara buraxılmasının 50 illik yubileyini diqqətindən qaçırmayaraq kollektivə təbrik məktubu göndərmiş, bu münasibətlə zavodun əməkdə xüsusi fərqlənən 5 işçisini "Şöhrət" ordeni və 26 nəfərini "Tərəqqi" medalı ilə təltif etmişdi. Yaşadıqları həyatın böyük hissəsi zavodla bağlı olan bu insanlar ölkə başçısının qayğı və diqqətini bütün kollektivin əməyinə verilən qiymətin təzahürü hesab edirlər. Onlar ulu öndərin əməllərini yaşatmaqla yeni neft strategiyasının reallaşması istiqamətində bundan sonra da böyük uğurlar qazanacaqlarına əmindirlər.

2004-cü il may ayının 5-də zavodda ümummilli lider Heydər Əliyevin abidəsinin təntənəli açılışı mərasimində iştirak edən Prezident İlham Əliyev kollektiv qarşısında çıxış edərək həmin günün Azərbaycan neft sənayesi tarixində əhəmiyyətli hadisə olduğunu qeyd edərək kollektivin nailiyyətlərindən söz açdı. Zavodun ikinci həyatının 1993-cü ildə Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra başlamasını bildirdi, burada gedən işlərin çox yüksək standartlara cavab verməsini qeyd etdi. Ulu öndər Heydər Əliyevin bu zavodun tikilməsində böyük xidmətlərini önə çəkən İlham Əliyev dedi: **"Vaxtilə Azərbaycanda böyük neft potensiallı infrastrukturlar, neft emalı zavodları, xüsusilə bu gün Heydər Əliyevin adını daşıyan Neft Emalı Zavodu yaranmışdır. Bu zavod məhz onun fəaliyyəti nəticəsində tikilmişdir və bu gün müəssisə ən yüksək standartlara cavab verir, xarici ölkələrə neft məhsulları ixrac edir".**

Bütün bunlar isə dövlət əhəmiyyətli müəssisədə həyata keçirilən yenidənqurma, quruculuq işləri, hərtərəfli yüksəliş Heydər Əliyevin müdrik rəhbərliyi nəticəsində olub. Heydər Əliyevin vaxtı ilə müəssisə üçün gördüyü işlər bu gün öz bəhrəsini verir. Ulu öndərin rəhbərliyi ilə yaradılmış və indi də daim genişləndirilən istehsalatın Azərbaycan üçün necə mühüm əhəmiyyət kəsb etdiyini hər bir zavod işçisi dərin minnətdarlıq hissi ilə qeyd edir. Kollektivin xahiş və müraciəti nəzərə alınaraq 22 aprel 2004-cü ildə Azərbaycanın neft emalı sənayesinin flaqmanı olan zavoda ulu öndər Heydər Əliyevin adı verilib.

Ulu öndər Heydər Əliyevin neft sənayesinin inkişafına dair verdiyi dəyərli tövsiyələri fəaliyyətlərində rəhbər tutan neftayıranlar üzərlərinə düşən vəzifələrin yerinə yetirilməsi üçün əzmlə çalışır və Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın iqtisadi cəhətdən qüdrətli dövlətə çevrilməsi üçün əllərindən gələni əsirgəmirlər. Bu gün Heydər Əliyev adına NEZ-in daha da inkişaf etdirilməsi, müasir tələblərə cavab verən texnologiyaların tətbiqi istiqamətində mühüm tədbirlər həyata keçirilir. Artıq müəssisədə yeni qurğunun inşa edilməsinə qərar verilib. Abşeron yarımadasının, o cümlədən Bakı şəhərinin iqlim şəraiti səbəbindən müəssisədə texnoloji qurğuların mövcud soyutma sisteminin ilin isti aylarında tələbata tam cavab verə bilməməsi nəzərə alınaraq ARDNŞ-in "Neftqazelmitədqiqatlayihə"İnstitutunun layihəsi əsasında zavodun ərazisində yeni susoyutma qurğusunun tikintisi nəzərdə tutulub. Bu məqsədlə Fransanın böyük təcrübəyə malik "Hamon Thermal Europe" şirkətinin müasir tələblərə cavab verən qurğusu seçilib.

Bu qurğu eyni zamanda zavodda həyata keçirilməsi planlaşdırılan 21 nömrəli ED-AV-6 qurğusunun ildə 7,5 milyon, 55 nömrəli katalitik krekinq qurğusunun 2,5 milyon ton məhsuldarlığa rekonstruksiyası və tikiləcək yeni qurğular nəzərə alınaraq layihələndirilib. Yeni qurğu qapalı sistemdir. Onun istismara verilməsindən sonra bioloji təmizləmə qurğularından zavoda verilən və dövretdirilən suyun dayandırılması nəticəsində bioloji təmizləmə qurğularının izafi yüklənməsinin qarşısı alınacaq ki, bu da ekoloji mühitin yaxşılaşmasına mühüm töhfə verəcək.

Zavodda emal qurğularının gücündən səmərəli istifadə olunması və müasir texnologiyanın, elmi-texniki tərəqqinin ən son nailiyyətlərinin tətbiqi üçün tədbirlərin həyata keçirilməsi də diqqətimizdədir. Neftin səmərəli emalı üçün emal qurğularının modernləşdirilməsi, avadanlıqların yeniləşdirilməsi, texnoloji proseslərin avtomatik idarə olunması prosesi mütəmadi olaraq davam etdirilir. Qeyd etmək lazımdır ki, zavodumuzda avtomatik idarəetmə sisteminin tətbiqinə ötən əsrin sonlarından başlanıb. İlk dəfə 1999-cu ildə respublika iqtisadiyyatında müstəsna əhəmiyyətə malik 55 №-li katalitik krekinq qurğusunda TDC-3000 elektron idarəetmə sistemi tətbiq olunub. Bu sistem 2003-cü ildə daha modern TPS, 2011-ci ildə isə mütərəqqi texnologiyanın son nailiyyəti olan Experion-PKS sistemləri ilə əvəzlənib. 2010-cu ildə zavodun 43 №-li tədrici kokslaşma qurğusunun da müasir Experion-PKS sistemlə idarə olunması qurğunun fəaliyyətinin dəqiqliklə nəzarətdə saxlamaqla onun gücündən daha səmərəli istifadə etməyə, yüksək məhsuldarlığa və fasiləsiz iş rejiminə nail olmağa imkan yaradıb. Belə bir sistemin katalitik riforminq qurğusunda da tətbiqinə başlanıb. Sözügedən işlərin davamı olaraq hazırda 54 №-li qurğunun doymuş MEA məhlulu regenerasiya blokunda yeni layihə həyata keçirilmişdir.

Zavodun müasirləşməsi eyni zamanda onun məhsullarının keyfiyyət və səmərəsini artırıb. Bu strateji əhəmiyyətli müəssisənin inkişafı ARDNŞ rəhbərliyinin daim diqqət mərkəzindədir. Məhz bu diqqət və qayğı sayəsində müasirləşən zavod emal etdiyi məhsulların keyfiyyətini daim artırır. Məlum olduğu kimi, ötən ildən ölkəmizdə istifadə olunan avtomobil yanacaqlarına Avropa standartları tətbiq edilir. Zavodumuzda bu istiqamətdə aparılan tədbirlər öz müsbət nəticəsini verib. Hazırda müəssisəmizdə Avro-2 ekoloji normasına uyğun məhsullar istehsal olunur və daha yüksək ekoloji normalara cavab verən Avro-3 mühərrik yanacaqlarının istehsal edilməsi ilə bağlı modernləşdirmə işləri istiqamətində tədbirlər görülür. Bir sözlə, zavodda buraxılan məhsulların, o cümlədən avtomobil benzinlərinin keyfiyyət məsələsinə daha çox diqqət yetirilir. Yaxşı başa düşürük ki, yalnız keyfiyyəti yüksək olduqda rəqabətə davam gətirmək mümkündür.

ARDNŞ rəhbərliyi istehsalat uğurları ilə bərabər, insan amilini, eyni zamanda ekoloji təhlükəsizliyi də daim diqqətdə saxlayır. Bu istiqamətdə zavodda bir sıra işlər görülür. Ətraf mühitə dəyən mənfi təsiri azaltmaq məqsədi ilə müəssisədə sistematik olaraq qabaqlayıcı tədbirlər həyata keçirilir. Enerji daşıyıcılarının, xüsusilə sobalarda yandırılan yanacağın sərfinin azaldılması, neft və neft məhsulları saxlanılan çənlərin saz vəziyyətdə istismarının təmin edilməsi və s. belə tədbirlərdəndir. Qeyd edək ki, ətraf mühitə vurulan mənfi təsirin dərəcəsi zavodun normativ sənədləri ilə tənzimlənir və bu səbəbdən zavodun hazırkı ekoloji göstəriciləri tamamilə normativlərə uyğundur. Müəssisədə ekoloji vəziyyətin yaxşılaşdırılmasında böyük rolu olan abadlaşdırma və yaşıllaşdırma işlərinə dair də tədbirlər həyata keçirilir. Ətraf mühitin qorunması, ekoloji tarazlığın təmin olunması üçün zavoddaxili və zavodətrafı ərazilərdə yaşıllıqların salınması, ağac və kolların əkilməsi, onlara aqrotexniki qulluğun təmin edilməsi gündəlik işimizdir.



ARDNŞ Heydər Əliyev adına Neft Emalı Zavodunun ölkə iqtisadiyyatının inkişaf etdirilməsində özünəməxsus yeri və rolu danılmazdır. Şirkətin bir çox əmək kollektivləri kimi, "Azərneftyağ" NEZ-in ona qoşulmasından sonra daha da monolit, sıx qüvvəyə çevrilmiş Heydər Əliyev adına Neft Emalı Zavodunun neft emalçıları neft sənayesinin inkişafına mühüm töhfələr verirlər. Təsadüfi deyil ki, dövlət plan-tapşırıqlarının vaxtında yerinə yetirməsi məhz bu fədakar insanların gərgin əməyinin nəticəsidir. Zavod rəhbərliyinin, baş mütəxəssislərin və kollektivin gərgin əməyi sayəsində uğurlar əldə edilmişdir. Onu qeyd edək ki, yaxın gələcəkdə Heydər Əliyev adına NEZ-də yenidənqurma işləri aparmaqla, müasir texnoloji qurğular inşa ediləcəkdir. Yanacaq enerji təhlükəsizliyinin etibarlı təminatı, daxili və xarici bazarlar üçün rəqabətqabiliyyətli neft məhsullarının istehsalı, avtomobil benzinləri və dizel yanacağının Avro-5 ekoloji standartlarının tələblərinə cavab verməsi, neft emalı məhsullarına ölkədaxili tələbatın uzunmüddətli təmin edilməsi, istismar xərclərinin azaldılması və gəlirliyin artırılması, Azərkimya İB-in xammal ilə etibarlı təmin olunması, ekoloji mühitin sağlamlaşdırılması məqsədilə yaxın gələcəkdə Heydər Əliyev adına Neft Emalı Zavodunda yenidənqurma işləri aparmaqla, müasir texnoloji qurğular inşa ediləcəkdir. Bu məqsədlə ARDNŞ və Dövlət Aerogeodeziya Müəssisəsi MMC arasında bağlanmış müqaviləyə əsasən NEZ sahəsində Topoqrafik Tədqiqat işlərinin birinci dərəcəli geodeziya işarələrini quraşdırılması mərhələsinə start verilmişdir. NEZ ərazisində yeni basdırılmış geodeziya və nivelir məntəqələrinin koordinat yüksəkliklərinin təyin edilib hesablanması, beş ədəd nivelir nişanlarının quraşdırılması işləri nəzərdə tutulan birinci pilləli sahə işlərin qrafikinə daxildir və bu istiqamətdə zavodda topoqrafik tədqiqatın həyata keçirilməsi üçün texniki təkliflərini təqdim edən SOCAR-Foster Wheeler və SOCAR-Fugro LLC Birgə Müəssisələrinin mütəxəssislərinin iştirakı ilə işlər sürətlə davam etməkdədir.

Son vaxtlar yeni neft strategiyasının həyata keçirilməsi istiqamətində ulu öndər Heydər Əliyevin adını daşıyan NEZ-də texnoloji qurğuların səmərəli dərəcədə əsaslı təmiri, mütərəqqi texnologiyanın tətbiqi, yenidənqurma işlərinin görülməsi, infrastrukturların genişləndirilməsi və həyata keçirilən digər böyük tədbirlər onun inkişafını təmin etmişdir. Cari ilin iyun ayının əvvəlindən Heydər Əliyev adına NEZ-in əsas texnoloji qurğularında eyni vaxtda aparılan irimiqyaslı təmir işləri müvəffəqiyyətlə başa çatmışdır. ARDNŞ və zavod rəhbərliyinin, baş mütəxəssislərin, mühəndis-texniki işçilərin, təmirçilərin gərgin əməyi nəticəsində 55 №-li katalitik krekinq, 21 №-li ilkin emal, 43 №-li kokslaşdırma, 31 №-li katalitik riforminq qurğuları əsaslı təmir olunaraq istismara verilmişdir.

**2015-ci ilin 8 ayı üzrə zavodumuza 4238,7 min ton xam neft və "Qaradağ" QEZ-dən 16,8 min ton qaz benzini, cəmi 4255,5 min ton xammalın emalı planlaşdırılmışdır.**

Faktiki olaraq, həmin hesabat dövründə 4279,6 min ton neft və 88,8 min ton kənardan daxil olan müxtəlif növ xammal, cəmi 4368,4 min ton xammal emal edilmişdir. Təyin olunan plana müvafiq neftin emalı 101% və ümumi xammalın emalı üzrə plan 102,7% yerinə yetirilmişdir.

2015-ci ilin 8 ayı üzrə zavodun ayrı-ayrı istehsal sahələrində texnoloji intizamın yaxşı səviyyədə olması və yaranmış şəraitə uyğun iş rejiminin seçilməsi nəticəsində işçilərimiz tərəfindən sərf olunan enerji resurslarına qənaət edilmişdir.

ARDNŞ-ın əmrinə əsasən 2015-ci ilin əvvəlindən iki neft emalı zavodunun birləşməsi, vahid emal zavodunun əsas fəaliyyətinin optimallaşdırılması, zavoda daxil olan yüksək keyfiyyətli neftlərin xeyli artması və onların potensialını nəzərə alaraq, səmərəli emalının təşkili, texnoloji qurğuların və xüsusilə də təkrar emal proseslərinə aid katalitik krekinq və tədrici kokslaşma qurğularının gücündən səmərəli istifadə edilmişdir. Lakin, ARDNŞ-ın tapşırığına əsasən "Azərenerji" ASC üçün nəzərdə tutulmuş həcmdə soba mazutunun ilin ikinci yarısında istehsalını təmin etmək məqsədilə zavodda "mazut rejimi" tətbiq edilmiş və cari ilin avqust ayında 43 №-li tədrici kokslaşma qurğusunun istismarı dayandırılmışdır. Bunun nəticəsində, 2015-ci ilin 8 ayı üzrə neftin emal dərinliyi 92,2% təşkil etmişdir və təyin olunan plana qarşı 2,1% artmışdır. 2014-cü ilin müvafiq dövrü ilə müqayisədə, emal dərinliyi 2,4% yüksək olmuşdur.

2015-ci ilin 8 ayı üzrə neft məhsullarının ümumi çeşidləri üzrə istehsal planı 103,9%, neft məhsullarının satış planı isə 106,1% yerinə yetirilmişdir.

Ölkəmizin, o cümlədən müəssisəmizin əldə etdiyi uğurlar ulu öndər Heydər Əliyevin müdrik siyasətinin möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən inamla davam etdirilməsinin nəticəsidir. Əminik ki, aparılan məqsədyönlü iqtisadi siyasət son nəticədə ölkəmizin daha böyük uğurlara imza atmasına və bütün sahələrin bundan sonra da hərtərəfli inkişafına səbəb olacaq.

**Elman İSMAYILOV,**
**Heydər Əliyev adına Neft Emalı Zavodunun direktoru.**